# Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı

Tanınmış araşdırmaçı yazar Xaqani İsmayılın "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" kitabı bədnam qonşumuzun bütün yalanlarını ifşa edən, onların xislətini ortaya çıxaran və bir çox tarixi faktlara işıq tutan ən mükəmməl vəsaitlərdən biridir. Müəllifin böyük zəhməti hesabına 3 dildə - Azərbaycan türkcəsi, rus və ingiliscə çap olunan kitabın, xüsusən də bütün dünyanın diqqətinin Qarabağa yönəldiyi indiki ərəfədə, geniş yayılmasına ciddi ehtiyac duyuruq. Odur ki, AMEA Tarix İnstitutunun və İnsan Hüquqları İnstitutunun rəyi və tövsiyəsi ilə nəşr olunan bu kitabın "Hürriyyət" qəzetində hissə-hissə dərcinə qərar verdik. Buyurun, oxuyun.

*(Əvvəli ötən saylarımızda)*






### ABŞ Genəl Qurmay Başqanı general Harbord: "Böyük Ermənistanda erməni görmədim"

24 sentyabr 1919-cu ildə Ərzuruma gələn ABŞ tədqiq heyəti (Genəl Qurmay Başqanı) general Harbord başqanlığında olmaq üzrə bütün Anadolunu aradı. Harbord heyətinə Kazım Qarabəkir paşa ermənilərin Gölə, Qars, Ərdəhan, Kağızman, Tuzluca (Duzluca), İqdır, Zəngibasar, Gəmibasar, Vedibasar, Kəmərli (Qəmərli), Şərur, Noraşen və Naxçıvan kimi bölgələrdə yapdığı türk-müsəlman soyqırımını incələyərək təsbit etdirdi. Sonuc olaraq bu bilgiləri Kazım Qarabəkir paşa 12 makina səhifəsi həcmində bir rapor şəklində heyət başçısına verdi.

Bu incələmələrdə şəxsən iştirak edən Harbord həmin raporu aldıqdan sonra belə demişdi: "Böyük Ermənistanda erməni görmədim".

* * *

I Dünya Savaşında ən erkən, ən çox, ən uzunsürəli zülmə və soyqırıma məruz qalan xalq, heç şübhəsiz ki, Anadolu türkləri-müsəlmanları idi... O məqamlarla bağlı tarixi hadisələrin (Osmanlıya qarşı böyük dövlətlərin savaşları və erməni xəyanətinə hesablanmış işğallar, etnik "təmizləmə"lər, Anadoluda türk kimliyinin yox edilməsi çabaları...) gedişatına toxunarkən, öncəki bölümlərimizdə də bu olaylara dair geniş açıqlama verdiyimizdən indiki bölümdə ancaq bəzi zəruri, yığcam bilgiləri diqqətinizə çatdırmaqla və bir qısim sənədləri tanıtmaqla kifayətlənəcəyik...

Hər şeydən öncə yada salaq ki, həmin dövrdə 200 000 nəfər erməni Müttəfiq Dövlətlərin ordularında Osmanlıya qarşı savaşa qatılmışdı. 60 000-lik erməni çətələri isə Anadolu köylərində və qəsəbələrində toplu qırğınlara girişərək 530 000 nəfər türk-müsəlmanı xunxarca (qaniçəncəsinə -X.İ.) öldürmüşdü... İndi Anadolunun hər köşəsində ermənilər tərəfindən qətl edilmiş türklərə aid toplu məzarlıqlar ortaya çıxmaqdadır. (Av. Zafer Zor. "Kitab haqqında").

Bu olaylara genəl olaraq, bölgələr üzrə, qısa da olsa, aydınlıq gətirməyə çalışaq...

* * *

Belə bölgələrdən biri Doğu Anadolunun İqdır elidir.

Sürməli çuxurunda yerləşən qədim türk eli "İqdırda ermənilərin yapdıqları zülmlərin və qətliamların böyük qanıtları vardır. Oba köyü, Haqməhmət köyü və Gədikli köyü toplu qətliam yerləri ulusal basın önündə açılmış və qətliamların doğruluğu canlı şahidlərin də ifadələri pəkişdirilərək (möhkəmləndirmək - X.İ.) isbatlanmışdır. Ancaq İqdırda açılmamış bir çox qətliam yerləri və toplu məzarlar da mövcuddur. Küllük, Bayraqtutan, Nəcəfəli, Yaycı, Köçqıran, Qadıqışlaq köyləri bunlardan bir neçəsidir"...

* * *

Türk araşdırmaçısı Əli Əşrəf Uzundərənin yazdığına görə, ermənilər Araz çayı üzərində Əlican (Qaraqoyunlu?) Körpüsünü tutaraq Dro (Drastomat Kanayan), Dr.Xaçatur Bonapartyan və yardımçılarının komandanlığı ilə İqdırda qətliamları sürdürmüşlər... (İnsanlıq Suçu. Ali Eşref Uzundere).

İqdır, Tuzluca və Aralıqda ermənilər çoluq-cocuq, gənc-ixtiyar demədən çox sayda türkü qətlə yetirmişlər.

* * *

I Dünya Savaşı öncəsində Şebinkarahisarda türklərə qarşı qətliam düzənləyən Sivaslı Murad, Sasun Canavarı kimi şöhrət qazanan Andranik və Muş qətliamını gerçəkləşdirən Arşak kimi erməni komitəçilərin liderliyi ilə Ərzincan, Bayburt, Ərzurum, Qars, Ərdəhan və İqdır kimi bir çox yerlərdə qətliam hərəkətləri yapılmışdır. Bölgədə olan müsəlman əhali rus subaylarının (zabit -X.İ.) artıq etkinliklərini (təsir -X.İ.) itirmələri səbəbilə, yox olma qorxusu ilə qarşı-qarşıya dayanmışdı...

[Haşiyə (qeyd): Diqqət et, əziz oxucu! Türkdən türkə çevirməni bizlər bəzən ərəb, fars sözləri ilə "etməli" oluruq: öncələrdə də dediyimiz kimi, bizə tezliklə dil islahatı (yəni: düzəlişləri) lazımdır!!!]

* * *

21 fevral 1914. Türkiyə. Qars və Ərdəhanda erməni bandit qruplaşmaları tərəfindən 30000 kişi qətlə yetirilmiş, gəncləri seçib oda atmışlar. Bu işgəncə və qırğınların təşkilatçılarından biri, artıq kölgəyə keçmiş terrorçu "Qnçak" təşkilatının ideoloqu, Osmanlı parlamentinin üzvü Stepan Ter-Danielyan idi.

11 may 1916. Erməni bandaları türk şəhəri Malazgirddə 20 000 müsəlmanı vəhşicəsinə öldürmüş, südəmər körpələri də əzab və işgəncələrdən sonra oda atmışlar.

22 may 1916. Erməni bandit dəstələri Vanda növbəti dəfə yerli türk və kürd əhaliyə divan tutdular. Dünyada görünməmiş bir alçaqlığa əl ataraq, 1 000 nəfər körpəni boğdular. Vandakı qırğınlar nəticəsində 15 000 müsəlman öldürülmüşdü. Meyitlərin qulaq və burunlarını kəsir, gözlərini çıxarırdılar.

## ANADOLU TÜRKLƏRİNİN SOYQIRIMI

22 may 1916. Van ətrafındakı qaçqınlarla dolu Yergel və Atyan müsəlman kəndlərində ermənilər 8 000 nəfəri öldürdülər. Yaxşı silahlanmış bu bandalara qarşı yerli müsəlmanların müqaviməti səmərə vermədi.

İyun 1916. Edremid (Ədrəmid). Türkiyənin bu şəhərindəki dinc yerli əhali də ermənilər tərəfindən hücuma məruz qalıb, 15 000 nəfər qurban veriblər. Bu şəhərə saldırmış erməni quldurları patrona qənaət etmək üçün əhaliyə ölümü yalnız "təkmil" işgəncələrlə qıyırdılar.

Yanvar 1918. Türkiyəyə aid Qatranlı kəndinə erməni başkəsənləri ətraf müsəlman kəndlərindən yığdıqları 1 400 uşağı diri-diri yandırdılar. Bu uşaqların valideynləri haqqında isə heç bir məlumat əldə edilməmişdir. Əməllərin məsuliyyəti «Daşnaksütyun"un üzərindədir.

Mart. 1918-ci il. Zevə. Türkiyə. Erməni bandit dəstələri bu kəndə saldıraraq, 8 qonşu kənddən götürdükləri əsirlərlə birgə vəhşi işgəncələrlə cəmi 2500 nəfər müsəlmanı güllələmişlər.

İyul 1919-cu il. Gerus. Türkiyə. Erməni bandaları Gerus şəhərindən yuxarıdakı kürd kəndlərini darmadağın edərək, dillə deyilməsi müşkül olan zülm vermişdilər. Əliyalın şəkildə müqavimət göstərmək istəyən kürd əhali demək olar ki, tamamilə qılıncdan keçirilmişdir.

Arxiv materiallarında qeyd olunur ki, 1915-1918-ci illərdə Türkiyənin cənub bölgələrində ermənilər tərəfindən 600 mindən çox kürd məhv edilmişdi.

9 mart 1920-ci il. Zəruşat. Türkiyə. Türk şəhəri Zəruşat ətrafında dinc əhaliyə divan tutuldu. Ermənilər 120 nəfər əsir edilmiş mülki müsəlmanı baltalarla doğramışdılar.

22 mart 1920-ci il. Türkiyə. Şürəgöl və Zəruşat şəhəri erməni başkəsən çətələrinin hücumuna məruz qaldı. Silahlı ermənilərə qarşı yerli əhali kənd təssərüfatı alətləri ilə vuruşurdu. Nəticədə 2000 müsəlman həlak edildi.

15 oktyabr 1920-ci il. Bayburt. Türkiyə. Bayburt şəhərinin 99 kəndində ermənilər tərəfindən törədilmiş vəhşilik nəticəsində 1387 meyit tapılmışdır. Qaçan uşaqları tutub, ölənədək işgəncə verirmişlər.

17 oktyabr 1920-ci il. Pasin. Türkiyə. Pasin şəhərinin 30 kəndində erməni başkəsənləri 9 287 nəfəri məhv etmişdir. Qocalara və uşaqlara ermənilər, adətən patron məsrəf etmir, vəhşicəsinə işgəncələrlə öldürürdülər.

Oktyabr 1920 - ci il. Türkiyə. Tortum şəhərinə bağlı 64 kənddə ermənilər 3700 nəfəri öldürmüşlər. Meyitlərdə işgəncə izləri qalmışdır. Müsəlman müqəddəslikləri ya yandırılmış, ya da təhqir olunmuşdu.

14 dekabr 1920-ci il. Sarıqamış. Türkiyə. Sarıqamış şəhərinin 18 kəndindəki 5337 nəfər müsəlman qaçqınları erməni saqqallıları tərəfindən öldürülmüşdür. Edam edilənlər sırasında kürdlər, türklər, ərəblər və b. millətlərin nümayəndələri vardı. Təkcə dekabr ayı ərzində buradakı 21 kənddə ermənilər 8202 müsəlmanı qətlə yetirmişlər.

29 aprel 1918-ci il. Gümrüdən Ahalkələyə gələn 500 arabadakı 3000 nəfər türk-müsəlman köçkün də ermənilər tərəfindən öldürülmüşdür. Eyni günlərdə iki top və iki makinalı tüfəngi olan 1000 nəfərlik erməni qüvvəsi Tuzluca və İrəvan bölgəsində bulunan türk-müsəlman köylərinə saldıraraq qadınları və cocuqları öldürmüşdür...

9-cu Qafqaz Firqəsi Komandanı miralay Rüşdü tərəfindən 21 avqust 1919-cu ildə 15-ci Qolordu Komandanı Kazım Qarabəkirə göndərilən raporda isə göstərilir ki, kürdlərin 18 avqustda Kağızmandakı ermənilərə saldırmasından sonra ermənilər bölgədəki müsəlmanları camelərə dolduraraq öldürməyə başlamışlar... 21 avqustda 12-ci Firqə Komandanı Osman Nurinin 15-ci Qolordu Komandanına göndərdiyi raporda da eyni olaylar göstərilərək, Kağızman, İqdır, Kulp (Qulp) civarında bir çox köyə ani olaraq toplarla və makinalı tüfənglərlə saldıran ermənilərin zülmündən bəhs edilir.

11 sentyabr 1919-cu il tarixli Hərbiyə Nezarətinə göndərilən bir raporda isə erməni vəhşiliyi belə ifadə olunmuşdur: "Ermənilər müəzzinləri azan oxurkən daşlayıb səbb etmişlər (söymüşlər -X.İ.), qadınlara bir çox işgəncələr verərək namuslarına təcavüz etmişlər. Topladıqları islam qadınlarını üryan bir halda ermənilər öz əsgərləri arasında gəzdirmişlər".

17 sentyabr 1919-cu ildə, ermənilər İqdırın 6 km doğusunda yerləşən Adbak köyünün əhalisini tamamilə qırmış və bu köyün 1 kmliyindəki 300 evlik Yağcı (Yaycı - X.İ.) köyü əhalisini faciəli və vəhşi şəkildə qətliama uğratmışlar.

11 mart 1920-ci ildə erməni silahlı dəstələri Ağbaba, Zərdüşad, Şürəgel (Şörəyel) və Çıldır qəzalarına hücum çəkərək, buradakı müsəlman əhalini cürbəcür işgəncələrlə məhv etmişlər. Ermənilər təkcə Zərdüşadda qadın və cocuqlardan ibarət 2000 nəfər müsəlmanı öldürmüş, 28 köyü tamamilə dağıtmış və topladıqları müsəlman qızlarının bir qismini Gümrüyə, bir qismini isə Qarsa gətirib erməni evlərinə paylamışdılar. Müsəlman qadınlarının tumanköynəklərini bazarlarda car çəkərək satan ermənilər bu basqınlarda onlara yararlılıq göstərən Qarsdakı kürd rəislərindən Davuda çoxlu pulpara verərək ödülləndirmişdilər.

2 iyul 1920-ci il tarixli bir bəlgədə isə Aralıq civarında 1500 çocuğu suya ataraq boğan ermənilərin bu mənfur hərəkətləri sonucunda bölgədə cocuq cəsədləri üzündən içməli suyun içilməz hala gəldiyi bildirilir.

5 iyul 1920-ci il tarixli başqa bir raporda da Qars, Sarıqamış, Qaraqurd, İqdır bölgələrində ermənilərin müsəlmanları qətliama uğratdıqları göstərilir. Bu raporda adı çəkilən cinayətlərdə (müsəlmanların evlərə doldurularaq yandırılmaları, süngülərlə öldürülərək Araz çayına atılmaları, mal-mülklərinin yağmalanması və b.) sorumluluq erməni generalı Obesyana aid olduğu bildirilir. Həmin raporda 1918-ci ildən bəri Qars və cevrəsində öldürülən müsəlmanların sayının 25 min nəfərə ulaşdığı xatırlanır. 25 iyul 1920-ci il tarixli başqa bir bəlgədə isə, ermənilərin İqdır bölgəsindəki müsəlmanlara saldırmaqla kifayətlənmədikləri, bölgədəki malakan köylərini də yağmaladıqları və bu haqda müsəlman və malakan köyləri əhalisinin hüdud ( sınır -X.İ.) komandanlıqlarına müraciət edərək müvafiq yardım istədikləri ifadə edilir.

Bir sözlə, ermənilər 1915-ci ildən 1920-ci ilin sonlarınadək, Şahtaxtı, Zəngəzur, Naxçıvan, İqdır, Sərdarabad və çevrəsindəki yüzlərlə köydə minlərlə müsəlmanı, qadın və cocuq demədən, min bir işgəncələrlə öldürərək cəsədlərini üzvlərə parçalamışlar. Andranik və Bapun (yəqin ki, Yapo nəzərdə tutulur - X.İ.) çətələrinin türk yaşayış məntəqələrini yaxıb-yıxdıqları, yerli türklərin mal-mülkünü, heyvanını yağmaladıqları, zülmdən qaçıb qurtulanların isə köçməyə məcbur olduqları arxiv bəlgələrindən aşkarca görünməkdədir (Dr.Şenol Kantarcı. Ağrı Dağı Eteklerinde Yitik Canlar).

Ermənilər tərəfindən həmin illərdə İqdırın Qoçqıran, Daşburun, Bulaqbaşı, Qadıqışlaq, Haqməhmət, Oba, Yaycı, Küllük, Bayraqtutan, Gədikli və b. köylərində türklərə qarşı toplu qətllər yapılmışdır. Bunlardan Oba (1-2 mart 1986-cı ildə), Haqməhmət (5-6 oktyabr 1999-cu ildə), Gədikli köyü (27 may 2003-cü ildə) uluslararası media ( BBC də daxil olmaqla) və elm adamlarının ( o sıradan italyan tarixçisi, prof. dr. Stefano Trinkhese və avstriyalı tarixçi prof. Erix Faygelin) hüzurunda canlı şahidlərin ifadələri ilə də təsdiq edilərək qazıntı aparılıb, toplu məzarlar açılmışdır.

Araşdırmaçı Ziya Zakir Acarın yazdığı, qətliama məruz qalan Naxçıvan və İqdır civarındakı Bulaqbaşı, Novruz, Uluxanlı, Qəmərli, Ciləxan, Şeyxlər, Qoçaq, Fəqirlər, Əliməhmət və Xızırlı köyləri əhalisinin bəzilərinin ifadələrindən də göründüyü kimi: ingilislərin Qarsa girməsiylə barış imzalandığı və istəyənlərin köylərinə dönə biləcəkləri elan edildiyi halda ermənilər tərəfindən geri dönən müsəlmanların yollarda qətl edildiyi və bu qətliamları yaparkən qadınları, cocuqları da süngülərlə dəlik-deşik etməkləri, top və makinalı tüfənglərlə toplu qətllər törətdikləri, qundaqdakı körpələrin qıçlarını ayıraraq başlarını daşla əzdikləri, qadınların doğulmamış cocuqlarını qarınlarından süngü ilə çıxardıqları; Qoçaq köyündə qadın və cocuqları bir-bir doğradıqdan sonra üzərlərinə qaz yağı töküb yandırdıqları, qocaların (ixtiyarların) saqqallarını qısqaclı maşa ilə çəkərək üzlərinin dərilərini soyduqları; cocuqların balta və xəncərlərlə qafalarının parçalanıb gözlərinin çıxarıldığı, cocuqların şişlərə keçirildiyi; bütün mal və heyvanların yağmalandığı, minlərcə türk-müsəlmanın soyqırıma məruz qoyularaq Araz çayının kəsilmiş və boğulan insan cəsədləri ilə dolub-daşdığı... və başqa bu qəbildən olan olayları özündə əks etdirən Osmanlı arxiv bəlgələri, o sıradan tanıq (şahid) ifadələri İqdır və çevrəsində ermənilərin türklərə qarşı yapdıqları qətliamları bir daha təsdiq etməkdədir.

*(Ardı var)*